*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 329-334*

https://doi.org/10.62837/2026.1.329

**NAİLƏ NAZİM QIZI BEREDZADƏ**
Odlar Yurdu Universiteti
beredzadnaiie@gmail.com

# MİRZƏ CƏLİL FELYETONLARINDA MAARİFÇİLİK İDEYALARI

**Xülasə**

Felyeton janrının inkişafında Cəlil Məmədquluzadənin rolu böyükdür. "Molla Nəsrəddin" jurnalının baş redaktoru olan Cəlil Məmmədquluzadə felyetonlarını bu jurnalda nəşr etdirirdi. Cəlil Məmmədquluzadə felyetonlarını "Anaş Qurbağa", "Cırcırama", "Allahpərəst", "Dəli", "Qulu", "Cəfəng", "Əmin", "Qorxaq", "Lağlağı", "Qızdırmalı", "Həmşəri", "Şeytan" və başqa imzalarla dərc etdirmişdir. Onun felyetonları ictimai şüurun formalaşmasında və milli özünüdərk prosesində mühüm rol oynayır. Yazıçı felyeton janrının imkanlarından geniş istifadə edərək ictimai şüurun yenilənməsi, milli özündərk və milli kimlik ideyalarının möhkəmlənməsi üçün çalışmışdır. Məqalədə milli birlik ideyası, ana dili probleminin qaldırılması, milli şüurun oyanış məsələləri, savadsızlıq, cəhalət, mövhumat ədibin felyetonlarının əsas mövzusu olması, bu felyetonlar vasitəsi ilə Cəlil Məmmədquluzadənin bir çağırışçı olması və xalqın özünə dönməsi, kimliyini dərk etməsi, milli birlik və həmrəylik yaratması kimi faktorlar vurğulanmışdır.

Maarifçilik ideyalarının təbliğində böyük xidmətləri olan Mirzə Cəlilin publisistikasında maarif və mədəniyyətin təbliği, savadsızlığın, cəhalətin tənqidi mühüm yer tutur. Müəllifin "Niyə mən dərsdən qaçdım", "Məktəblər", "Əlifba", "Müəllimlər", "Maarif işləri", "Uşaqlarımız", "Şura", "Təzə təlim kitabı", "Gözəl yerlər" kimi felyetonlarında maarif və mədəniyyət sahəsində yol verilən nöqsanlar kəskin şəkildə tənqid edilmişdir.

**Açar sözləri:** ana dili, milli özünüdərk, maarifçilik, xalq, felyeton.

**Beredzade Naila**

## ENLIGHTENMENTAL IDEAS IN MIRZE JALIL'S FEULETONS

**Summary**

Jalil Mammadguluzade played a significant role in the development of the feuilleton genre. As the editor-in-chief of the "Molla Nasreddin" journal, he published his feuilletons there. Jalil Mammadguluzade released his feuilletons under pen names such as "Anaş Qurbağa," "Cırcırama," "Allahpərəst," "Dəli," "Qulu," "Cəfəng," "Əmin," "Qorxaq," "Lağlağı," "Qızdırmalı," "Həmşəri," "Şeytan," and others. His feuilletons also played an important role in shaping public consciousness and awakening national self-awareness. The article emphasizes the idea of national

unity, the raising of the problem of the mother tongue, the awakening of national consciousness, and the criticism of illiteracy, ignorance, and superstition as the main themes of Jalil Mammadguluzadeh's feuilletons. Through these feuilletons, Mirza Jalil is presented as a writer who issues a call to action, urging the people to return to themselves, to realize their identity, and to create national unity and solidarity.

In the journalism of Mirza Jalil, who rendered great services in promoting Enlightenment ideas, the advocacy of education and culture, as well as the criticism of illiteracy and ignorance, occupies an important place. In feuilletons such as "Why I Skipped Class," "Schools," "Alphabet," "Teachers," "Educational Affairs," "Our Children," "Council," "New Textbook," and "Beautiful Places," the shortcomings in the fields of education and culture were sharply criticized.

**Keywords:** mother tongue, national self-awareness, enlightenment, people, feuilleton

**Beредзаде Наиля**

## ПРОСВЕТИТЕЛЬСКИЕ ИДЕИ В ФЕЛЬЕТОНАХ МИРЗЫ ДЖАЛИЛЯ

## РЕЗЮМЕ

Джали́л Мамедкулизаде сыграл большую роль в развитии жанра фельетона. Будучи главным редактором журнала «Молла Насреддин», он публиковал свои фельетоны именно там. Джалил Мамедкулизаде печатал свои произведения под такими псевдонимами, как «Анаш Курбага», «Джырджырама», «Аллахперест», «Дели», «Кулу», «Джафанг», «Амин», «Горкхак», «Лаглагы», «Гыздырмалы», «Хамшери», «Шайтан» и другими. Его фельетоны также сыграли важную роль в формировании общественного сознания и пробуждении национального самосознания. Писатель широко использовал возможности жанра фельетона, стремясь к обновлению общественного сознания, укреплению идей национальной идентичности и самосознания. Основными темами его фельетонов были идея национального единства, проблема родного языка, пробуждение национального сознания, неграмотность, невежество и суеверие. Через свои фельетоны Джалил Мамедкулизаде выступал как призыватель, побуждая народ вернуться к своим корням, осознать свою идентичность, стремиться к национальному единству и солидарности.

Джалил Мамедгулузаде является также одним из писателей, внесших большой вклад в пропаганду идей просвещения. Пропаганда образования и культуры, критика неграмотности и невежества занимают важное место в его публицистике. В таких фельетонах, как «Почему я прогулял урок», «Школы»,

«Алфавит», «Учителя», «Просветительская работа», «Наши дети», «Совет», «Новый учебник», «Красивые места», резкой критике подвергались недостатки в сфере образования и культуры.

**Ключевые слова:** Общественное сознание, национальное самосознание, народ, единство, фельетон.

## Giriş

XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycanda maarifçiliyin formalaşdığı dövrdür. Maarifçilik cəmiyyətin savadsızlıqdan, xurafatdan, cəhalətdən qurtulub azad fikirli şəxsiyyətlərə çevrilməsinə xidmət edən ədəbi hərəkatdır. Cəlil Məmmədquluzadə maarifçilik ideyalarının ən cəsarətli təbliğatçılarından biri kimi çıxış edərək felyetonlarında bunu göstərmişdir. Fransada yaranmış felyeton janrını Azərbaycan ədəbiyyatına sistemli şəkildə formalaşdıran və milli mətbuata gətirən şəxs maarifçi, dramaturq, publisist Cəlil Məmmədquluzadədir. Mirzə Cəlildən əvvəl Həsən bəy Zərdabi və dövrün bəzi publisistlərində satirik ünsürlər var idi amma klassik mənada felyeton janrı – yəni satira, publisistika, ictimai çağırış – məhz Mirzə Cəlilin yaradıcılığında tam formalaşdı. Felyeton janrının imkanlarından istifadə edən yazıçı dövrün ictimai-siyasi problemlərini öz əsərlərində ön planda vermişdir. Maarifçilik ideyaları Mirzə Cəlilin felyetonlarında və publisistik mətnlərində sərt boyalarla təqdim edilmişdir. Maarifçilik ideyalarının daşıyıcısı olan Cəlil Məmmədquluzadənin felyetonlarında savadsızlığın tənqidi, ana dil problemi, dini fanatizmin ifşası, cəhalət, mövhumat əsas tənqid hədəfləridir. Maarifçilik ideyaları Cəlil Məmmədquluzadənin felyetonlarında satira və yumor vasitəsilə təqdim olunmuşdur.

Cəlil Məmmədquluzadə ana dilinin saflığı, təmizliyi uğrunda fədakarlıq etmiş maarifçilərdən biridir. “Ana dili”, “Dil”, “Meymunlar”, “Ayların adları”, “Mustafa Əlibəyov”, “Sizi deyib gəlmişəm”, “ Bizim obrazovannılar”, “Mini–mini masallar” və başqa felyetonlarında ana dilini yad təsirlərdən qorumaq üçün mübarizə aparmışdır. Müəllifin bu mövzuya müraciət etməsinin əsas səbəbləri ziyalıların ana dilinə biganəliyi, doğma dilimizə qarşı hörmətsizlik, ana dilimizə qarşı laqeydlik olmuşdur. Molla Nəsrəddin jurnalının ilk nömrəsində nəşr olunan “Sizi deyib gəlmişəm” felyetonu ana dilinin qorunması uğrunda maarifçi mübarizənin bədii ifadəsidir. “Ey mənim müsəlman qardaşlarım! Əgər bilmək istəsəniz ki, kimin üstünə gülürsünüz, o vaxt qoyunuz qabağınıza aynanı və diqqətlə baxınız camalınıza” deyən yazıçı başqalarını deyil, cəmiyyətin öz içindəki qüsurları, savadsızlığı, geriliyi ələ salır. (1)

Cəlil Məmmədquluzadənin 1908-ci ildə dərc etdiyi “Ana dili” felyetonunda ana dilimizin necə çətinliklərlə üzləşdiyini göstərib. Müəllif əsərdə Azərbaycanlıların öz dillərinə sahib çıxmadıqlarını, ana dilinə biganəliyini, başqa xalqların dillərinə

yönəlmələrini tənqid etmişdir. Felyeton “tatarlar ana dilində yazdığı qəzetləri oxuyanda Qafqaz cavanlarının ana dili danışmaqları yada düşür” ifadəsi ilə başlayır. Burada müəllifi təəssüfləndirən məqam ana dilimizin əvəzinə yad dildən istifadə edilməsidir. "Persiyada camaat şaxdan nedavolnudur", yəni istəyir desin ki, "İranda camaat şahdan narazıdı" (1, s.263).

Müəllif öz ana dilində danışmaqdan çəkinən və bu səbəbdən utanan insanları tənqid atəşinə tutmuşdur. 1906-cı ildə “Molla Nəsrəddin” jurnalında nəşr olunan “Bizim obrazovannılar” adlı felyetonunda bu məsələyə toxunmuşdur. Bu felyetonda müsəlman olan rəfiqələrin dioloqu zamanı rəfiqələrdən birinin danışığını rusca verərək gülüş hədəfinə çevirir. Obrazovannının müsəlmanca danışmağı eyibdir kimi ifadəsi cəmiyyət arasında yanlış şəkildə yayılmışdır. Savadlı olmağı ana dilindən uzaqlaşmaqla eyniləşdirən düşüncə tərzini tənqid obyektinə çevirərək, ana dilinə laqeyd münasibətin maarifçilik prinsiplərinə zidd olduğunu göstərmişdir. Ədib, 1906-ci ildə Hop-hop təxəllüsü ilə “Molla Nəsrəddin” jurnalında dərc etdiyi “Abirin və kilab” felyetonunda ana dilimizin korlanmasını açıb göstərmişdir. Mirzə Cəlil təmsili tərcümə edən türk qəzetini tənqid etmişdir. Çünki mətbu orqanı öz dilinin sözlərindən istifadə etmək əvəzinə ərəb sözlərindən istifadə etmişdir. Əsərdə rus ədibi məşhur Krılovun "Abirin və kilab" adında bir təmsilindən danışılır. "Abirin" ərəbcə yolçular, "kilab" isə itlər mənasını verir. Mətbuatda işlədilən yad sözlər oxucu tərəfindən başa düşülmür. Müəllif bununla mətbuatın cəmiyyətdən uzaqlaşmasını, ana dilinin sadəliyinin pozulmasını ciddi şəkildə ifşa etmişdir.

Mirzə Cəlilin yaradıcılığında qadın azadlığı, qadın əsarətinə qarşı mübarizə xüsusi yer tutur. Xüsusilə hekayələrində, felyetonlarında qadının kölə vəziyyətinə gətirilməsi, hüquqlarının əlindən alınmasına qarşı mübarizə əsas məqsəd təşkil edir. “Keçən günlər”, “Mıncıq” ,“Məryəm xanım”, “Dağarcıq” felyetonlarında qadın azadlığı məsələsinə toxunmuşdur. Müəllif 1907-ci ildə “Molla Nəsrəddin” jurnalında dərc etdiyi “Qız uşağı” felyetonunda qadına qarşı mənfi münasibəti, mövhumatı, cahil cəmiyyəti ifşa edir. Cəmiyyətin qız uşağına qarşı olan köhnəlmiş, ədalətsiz, geridəqalmış fikirləri felyetonun əsas ideyasıdır. Əsərdə qadına dəyər verilmədiyi, gələcəyin gəlin materialı kimi yetişdirilməsi göstərilir. Qız doğulan evdə bərəkət olmaması, borc, yük kimi baxılması bu cəmiyyətin geri düşüncədə eyni zamanda cahil cəmiyyətin səhv düşüncədə olduğunu göstərir. Əsərdə heç kəsə lazım deyil onun yekəlməyi kimi ifadələr əslində müəllifin cəmiyyətə qarşı olan kəskin münasibətini açıb göstərmişdir. Müəllifin 1924-cü ildə “Molla Nəsrəddin” jurnalında dərc olunan ən güclü sosial felyetonlarından biri “Şərq qadını” felyetonudur. Felyetonda müəllif qadın azadlığını müdafiə edir, milli özünüdərkə çağırır. Mövhumat, cəhalət, fanatizm felyetonda tənqid edilir. Daim cəmiyyətin qorxusu olmuşdur ki, qadın oxusa, qadın azad olsa fəlakət olar. Qadın oxuduqca, qadın savadlandıqca millət dəyişəcək, xalq dirçələcək. Felyetonun sonunda Xavər xanımın

çıxışı oxucunu silkələnməyə çağırır. "Ey Şərq qadınları, oxuyun, oxuyun, oxuyun! Əgər oxuyub savad və elm qazansanız, onda azadlığın qədrini bilərsiniz". (2, s.152)

Mirzə Cəlil felyetonlarında erkən nikahlar və qadın hüquqlarının tapdanmasına qarşı mübarizə aparmışdır. Bu felyetonlar vasitəsi ilə cəmiyyəti düşünməyə, cəmiyyətin şüurunu dəyişməyə çağırırdı. Onun 1923-cü ildə "Molla Nəsrəddin" jurnalında dərc etdirdiyi "Nə mərəkə" adlı felyetonu bu baxımdan səciyyəvidir. Bu felyetonda fanatizmin və savadsızlığın uşaqların taleyini məhv etməsi tənqid edilir . Felyetonun məzmun xətti odur ki, Seyid ağanın doqquz yaşlı qızla evlənməsini cəmiyyət heç bir problem olmamış kimi qəbul edir. İnsanların bunu adi bir hal kimi qəbul etməsi ictimai şüurun faciəsidir. Dinin adından istifadə edilərək zorla evləndirilmə fanatizmin tənqididir. Əksinə əsərdə mollalar, seyidlər buna etiraz etmir .Bununla müəllif onu demək istəyir ki, cəmiyyətin şüurunda qadın hüquqlarının olmadığını göstərir. Qadının savadsız, təhsilsiz olması savadsız anaların yetişməsi deməkdir.

Cəlil Məmmədquluzadənin felyetonları Azərbaycan ədəbiyyatında mövhumata qarşı aparılan maarifçi mübarizənin ən kəskin nümunələrindəndir. Yazıçı felyeton janrı vasitəsilə dini fanatizmi və xurafatı tənqid etmiş və mövhumatı cəmiyyətin inkişafına mane olan problemlərdən biri kimi təqdim etmişdir. "Niyə məni döyürsünüz" adlı felyetonunda xalqı köhnə adətləri icra etməyə, geriliyə səsləyən molların əsl sifətini üzə çıxarmışdır. "Din" adlı felyetonunda din xadimlərinin iç üzünü ifşaedici formada təqdim etmişdir. "Məscid" felyetonunda məktəblərin sayının artması əvəzinə məscidlərin artması haqqında bəhs etmişdir. "Necə qan ağlamasın" felyetonunda aşura günü baş yaranların tərkibi barəsində yazmışdır. Mirzə Cəlilin 1906-cı ildə "Molla Nəsrəddin" jurnalında çap olunan "Danabaş kəndindən" adlı felyetonunda mollaların rüşvətlə düzəltdiyi işlər aşkara çıxarılır. Felyetonda yaponiyalı bir şəxsin milanlı bir qızı zorla qaçırması və onunla kəbin kəsdirmək istəməsindən danışılır. Yaponiyalı əvvəlcə Almaniyaya, sonra isə Rusiyaya gedir. Amma kəbini heç bir ölkədə kəsmirlər. Daha sonra yaponiyalı qızı Xoy şəhərinə gətirərək, mollaya yarımca manat verməklə kəbini kəsdirir. 1907-ci ildə "Molla Nəsrəddin" jurnalında "Anaş qurbağa" təxəllüsü ilə dərc etdiyi "Zəncir" adlı felyetonunda cəmiyyətin azadlığının məhdudlaşdırılması, hüquqlarının pozulması kimi halları görmək olar. Zəncir felyetonda sətiraltı məna daşıyır. Zəncir insanların azadlığına vuralan mənanı ifadə edir. Yazıçı açıq şəkildə göstərmişdir ki, insanların azadlıq tələb etməməsinin səbəbi savadsızlıq, qorxu və köhnə düşüncə tərzidir. Savadlı, hüquqlarını bilən insan zəncirlənə bilməz. Müəllif bu felyetonda xalqına onu çatdırmaq istəyir ki, heç kəs onların əlindən azadlığını ala bilməz. Bu zəncirləri qıraraq azadlıq tələb etməyə səsləyir. "Təzə təlim kitabı" felyetonunda isə cəmiyyətdə, hökumət idarələrində hökm sürən cəhalət, avamlıq kimi hallar tənqid olunur.

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 1, 2026*
*Səh. 329-334*

**Nəticə**

Cəlil Məmmədquluzadə 20-ci əsrin əvvələrində baş verən ictimai–siyasi vəziyyəti felyetonlarında təsvir etmişdir. Cəmiyyətdəki ədalətsizliklər, savadsızlıq, qadın hüququ, millətçilik məsələləri onun felyetonunun əsas mövzularıdır. Felyetonlarında Azərbaycanın azadlığı və inkişafı ön plana çəkilmişdir. Daim xalqını ayıltmağa çalışmış, cəmiyyəti düşünməyə vadar edirdi. Mirzə Cəlilin felyetonlarında maarifçilik ideyaları Azərbaycan cəmiyyətinin milli dirçəliş və mədəni inkişaf yolunda mühüm rol oynamışdır. Nəticə etibarilə demək olar ki, Mirzə Cəlilin felyetonlarının çoxunda maarifçilik ideyalarına rast gəlinir.

**Ədəbiyyat siyahısı**

1.Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə, II cild. Bakı: "Öndər nəşriyyat", 2004.-584 s.

2. Məmmədquluzadə Cəlil. Əsərləri. Dörd cilddə, III cild. Bakı: "Öndər nəşriyyat", 2004.-480 s.

3.Günel Əhmədova. Felyeton janrının yaranması və inkişafında Cəlil Məmmədquluzadənin rolu. Poetika.izm,- 2023.-10 s.

**Rəyçi: f.ü.f.d. Muxtarzadə Nuridə**